# UŞAQ ƏDƏBİYYATININ PEDAQOJİ MAHİYYƏTİ

**İbrahim KURT**

Qafqaz Universiteti,
Bakı / AZƏRBAYCAN

*ikurt@qafqaz.edu.az*

**XÜLASƏ**

Bu gün cəmiyyətdə baş verən dəyişikliklər onun bir parçası olan insanları da yaxından maraqlandırır. Bu dəyişikliklər dəyərlərə münasibətə də öz təsirini göstərir. İnsanlar tərəfindən unudulmuş dəyərlər sisteminin gənc nəslə təbliğ edilməsinin həm bu günümüz, həm də sabahımız üçün əhəmiyyəti böyükdür. Bu baxımdan gələcəyimiz olan uşaqların tərbiyə olunmasına xüsusi diqqət yetirilməsi vacibdir. Uşaq ədəbiyyatı nümunələri də uşağın öz mənliyini formalaşdırmasında mühüm bir funksiyanı yerinə yetirir.

**Açar sözlər:** uşaq ədəbiyyatı, uşaq, tərbiyə

**PEDAGOGICAL ASPECT OF CHILDREN LITERATURE**

**ABSTRACT**

Nowadays the changes in the society are interested by the people who are belonged to it. These changes influence the values and the relations. It's important for todays and tomorrows that to transmit the values which have been forgotten to the young nations. It is necessary to have special attention for upbringing of the future children. The works of cildren literature have a functional position to form the self of child.

**Key words:** children literature, child, upbringing

Uşaqlıq dövründə uşağın qarşılaşdığı bir çox hadisələr və gördüyü insanlar onun istər o dövrünə, istərsə də sonrakı həyatına özünün müsbət və mənfi təsirini göstərir. Bu baxımdan yazıçılar öz əsərlərində hansısa qəhrəmanı təsvir edərkən onların davranış və psixoloji xüsusiyyətlərini uşaqlıq dövründə qazandıqları təcrübələri ilə açıb göstərməyə çalışırlar.

Əvvəllər uşaqlardan bəhs edən əsərlər olmadığından və ya çox az təsadüf edildiyindən onlara böyüklər üçün yazılan əsərlərin oxunduğu və oxudulduğu bir həqiqətdir. Uşaqlıq dövrünün xüsusiyyətlərini düşündükdə böyüklər üçün yazılmış ədəbiyyat əsərlərinin uşaqların daxili aləminə nüfuz edə bilməyəcəyi anlaşılır. Uşaqlar böyüklərdən bəhs edən əsərləri yaş xüsusiyyətləri baxımından qavraya bilmir, onların tərbiyəvi təsir gücündən faydalanmaqda çətinlik çəkirlər. Çünki uşaqların uşaqlıq dövrünə aid özünəməxsus hiss və duyğuları vardır. Onların duyğularına, xəyal və düşüncələrinə təsir edən şifahi və yazılı əsərlərin rolu böyükdür. Bir şeyin gerçəkləşməsi üçün mütləq ona ehtiyac duyulmalıdır. Uşaqlar da səviyyələrinə uyğun olaraq şifahi və yazılı əsərlər vasitəsilə öz ehtiyaclarını ödəməyə çalışmışlar. Beləcə uşaq psixologiyası ilə bağlı məsələlər və maarifçi yazıçıların əsərləri uşaq ədəbiyyatı anlayışını meydana çıxardı və ədəbiyyatçıların da diqqətini oraya yönəltdi. Keçmişdən bu yana önəmli olan uşaqların təlimi məsələsi və bu istiqamətdə aparılan işlər başqa sahələri də təsiri altına almışdır. Bunun da nəticəsi olaraq uşaqların təliminə böyük təsiri olan uşaq ədəbiyyatı anlayışı

yaranmış və uşaq ədəbiyyatına aid yazılan əsərlər hər gün yenidən kəşf edilməyə doğru yönəlməyə başlamışdır.

Uşaq ədəbiyyatı əsərlərində əxlaq tərbiyəsini araşdırmazdan və bu əsərlərin uşaqların gələcəkləri baxımından təsirini göstərməzdən əvvəl «Uşaq ədəbiyyatı» deyəndə nə anlaşıldığına, uşaqlar üçün yazılan ədəbi əsərlərin mahiyyətini açmağa ehtiyac vardır. «Uşaq ədəbiyyatı» anlayışını izah edə bilmək üçün öncə bu deyimi meydana çıxaran «ədəbiyyat» sözünün mənasını təqdim etmək lazımdır.

Bir çox yazıçı və tədqiqatçılar tərəfindən tərifi verilmiş «ədəbiyyat» anlayışı «Düşüncə, duyğu, hadisə və proseslərin dil vasitəsilə təsvir olunması sənəti» kimi təqdim olunmaqdadır.

Fərhad Fərhadov, Aydın Hacıyev ədəbiyyatı gənc oxuculara həyatı dərindən anlamaqda kömək edən, dünyagörüşlərini zənginləşdirən, ədəbi zövqlərini inkişaf etdirən vasitə olduğunu qeyd edirlər. Kavcar Cahit "İnsanın özünü, ətrafını, cəmiyyəti tanıması, daha yaxşı baxımdan dəyərləndirməsi və duyması üçün ədəbiyyat təliminin vacib olmasını " da göstərir[1]

Ədəbiyyat həyatdakı hadisələri, duyğu və düşüncələri ədəbi formada təsvir edə bilmə və araşdırma sənətidir. Cəmiyyət və insanların bir çox istək və arzularının olması təbiidir. Həmin bu arzu və istəkləri insani dəyərlər çərçivəsində həyata keçirmək üçün müxtəlif vasitələrdən istifadə olunur. Ədəbiyyat da bu vasitələrdən biridir. Ədəbiyyat gündəlik həyatımızda baş verənləri əks etdirərək hislərimizə təsir edir, düşündürür, anlayıb ifadə edə bilmədiklərimizi dilə gətirir.

İndi isə «uşaq ədəbiyyatı» ifadəsinin mənasını yaxşı anlamaq üçün «uşaq» anlayışını da izah etmək lazımdır. Lüğətlərdə və xüsusən də psixologiya kitablarında «uşağ»ın izahına geniş yer verilmişdir. «Uşağ»ı bu şəkildə izah etmək olar: «Uşaqlıq çağı ilə yeniyetməlik arasında inkişaf edən insan», yaxud uşaq deyərkən, əsasən dünyaya yenicə göz açan körpədən tutmuş, 16-17 yaşa qədər olan insan övladı nəzərdə tutulur.[2] Yəni duyğuların, düşüncələrin, xəyalların və zövqlərin böyüklərdəki kimi olmadığı, fərqli yaşandığı bir mərhələdir.

Ümumiyyətlə, insan həyatında 0-17 yaş arası uşaqlıq dövrü olaraq qəbul edilib. Uşaqlıq dövrü özü də bir sıra yaş qruplarına ayrılır. Hər bir yaş qrupunun özünə görə xüsusiyyətləri vardır.

Təlim sahəsində insanın uşaqlıq dövrü üç qrupa bölünür:[3]

â) İlk uşaqlıq çağı (oyun çağı):2-6 yaşlar
b) İkinci uşaqlıq çağı (məktəb çağı): 6-10 və ya 6-12 yaşlar
c) Son uşaqlıq çağı (yeniyetməlik çağı): 10-13 və ya 12-14 yaşlar

Bütövlükdə insan ömrünün 2-14 yaşları arasında keçən inkişaf mərhələsinə «uşaqlıq çağı» deyilir.

Qara Namazova görə uşaqlar yaş xüsusiyyətlərinə görə 4 qrupa bölünə bilər:

a) Bağça yaşlı uşaqlar (3-7 yaş qrupu).
b) Kiçik yaşlı məktəblilər (7-11 yaş qrupu).
c) Orta yaşlı uşaqlar (11-15 yaş qrupu).
d) Böyük yaşlı məktəblilər (15-17 yaş qrupu).

Uşaq ədəbiyyatı əsərlərində uşağın duyğuları, inkişafı, idrakı, danışığı diqqətə alınmalıdır. Hamıya məlumdur ki, uşaqlar dövr keçdikcə, nəsillər bir-birini əvəz etdikcə dəyişir.[4] Əgər 2 yaşlı uşaqla 16 yaşlı uşaq arasında yaş fərqi mövcuddursa və dünyaya münasibətləri baxımından aralarında fərq varsa o zaman bu fərq onlar üçün yaranan ədəbiyyatda da öz əksini tapmalıdır. Uşaqlar üçün əsərlər yazan bütün yazıçılar bu yaş mərhələlərini nəzərə alırlar.

Əslində bu 2 fərqli bölgünün ortaq nöqtələri alınsa, daha yaxşı olar. Qrupları belə sıralamaq olar:

a. Bağça yaşlı uşaqlar (2-6 yaş qrupu).
b. Kiçik yaşlı məktəblilər (6-9 yaş qrupu).
c. Orta yaşlı uşaqlar (10-14 yaş qrupu).
d. Böyük yaşlı məktəblilər (15-17 yaş qrupu).

Yaş qruplarının birinci mərhələsində olan kiçik yaşlı uşaqlarda oxumaq qabiliyyəti olmur. Uşaqlar ətraf aləm haqqında onları maraqlandıran bütün sualların böyüklər tərəfindən cavablandırılmasını tələb edirlər, özlərini və ətraflarını yavaş-yavaş tanıyaraq hər bir yaş çağında yeni öyrəndikləri ilə inkişaf edirlər. Yaş xüsusiyyəti dedikdə, uşaqların bacarıqları, bilik səviyyəsi, diqqətlərini cəlb etmə qabiliyyəti, hafizəsi, yaddaşı, uşaqların bədii zövqünün dərəcəsi, əməyə və ətrafına münasibətləri də nəzərə alınmalıdır. Bu mərhələ «məktəbəqədər» dövr ilə «məktəb» dövrünü birləşdirir.

Cəmiyyətin sosioloji cəhətdən təbəqələrə bölünməsi baxımından insan ömrünü çağalıq, uşaqlıq, ilk gənclik, orta yaş və yaşlılıq kimi mərhələlərə ayırırlar. Bu mərhələlərin psixoloji xüsusiyyətləri uşaqlar üçün ayrıca ədəbiyyatın olmasının vacibliyi məsələsini ortaya çıxarmışdır.

Uşaq ədəbiyyatı məfhumu, zaman keçdikcə ədəbiyyatçıların təsiri ilə yeni mənalar qazanmağa başladı. Türk dili və ədəbiyyatı təlimində mühüm yeri olan uşaq ədəbiyyatını Özkırımlı «Uşaqların oxuyub zövq ala biləcəyi, maarifləndirici məqsədlər daşıyan ədəbiyyat nümunələrinə verilən ad» kimi təqdim edərkən[5], Qara Namazov uşaq ədəbiyyatına belə tərif verir: "Uşaq ədəbiyyatı ədəbiyyatın tərkib hissəsi olub, məqsəd və vəzifəsinə görə 17 yaşına qədər müxtəlif oxucu qruplarının təlim, təhsil və əxlaqi-estetik tərbiyəsinə yönəldilən bədii əsərlərə deyilir"[6]. Uşaqlıq dövründə yaşanan xəyallar, duyğu və düşüncələr şifahi və yazılı ədəbiyyatın bütün formalarında əks oluna bilir: Bunlar; nağıllar, hekayələr, romanlar, xatirələr, bioqrafik əsərlər, səyahətnamələr, şeirlər və s. olaraq göstərilə bilər. Müxtəlif yazı formalarında ərsəyə gətirilən bu əsərlərin böyüklər üçün yazılan əsərlər kimi gözəl və təsiredici olması da vacibdir. Tanınmış yazıçılar tərəfindən uşaqlar üçün yazılan və onların xəyal, duyğu və düşüncələrinə təsir edən bu əsərlər uşaq ədəbiyyatı əsərləri sırasına daxil olmaqdadır.

Günümüzdə uşaq ədəbiyyatının ibtidai məktəb siniflərində istifadəsi, oxuma-yazma mövzusunun təməl daşını meydana gətirməkdədir. Uşaq ədəbiyyatının uşaqların oxuma-yazma təhsilinə faydalı təsirləri, bir çox tədqiqatçı, pedaqoq və alimlər tərəfindən qəbul edilmişdir. Bunun yanında, uşaq ədəbiyyatının dil inkişafını asanlaşdırdığı da bir gerçəkdir. Cullinana görə "uşaqlar eşitdikləri dili öyrənirlər: Nə qədər çox dili inkişaf etdirəcək mühit olsa, uşaqlar da o qədər çox dil təhsilindən yararlanırlar".[7]

Zarillo (1989) uşaq ədəbiyyatına söykənən öyrənməyi və müəllimin vəzifəsini "təhsil üsulları və tapşırıqları, hekayə kitabları, məlumat verici kitabları, qısa hekayələri, oyunları və şeirlərinin əhatəsi" olaraq təyin etməkdədir[8].

Səməd Vurğuna görə uşaq ədəbiyyatı müstəqildir. O, hərəkətli bir ulduz kimi daima axaraq oynayır. Hər zaman hərəkətdə olmaq uşaqların bir başqa xüsusiyyətlərindəndir. Duyğulu və romantik olmaq bu xüsusiyyətlərin mənbələrindəndir.[9]

Yəni, 2-16 yaş arasında olan uşaqların xəyal, duyğu, düşüncə və dünyagörüşünə təsir edərək onlara yaşamaq sevinci və həyəcanı qazandıran, uşaqların böyümələri və qabiliyyətlərinin inkişafında rol oynayan, yaş və fərdi xüsusiyyətlərinə uyğun, sənət dəyəri daşıyan şifahi və yazılı əsərlər

uşaq ədəbiyyatı olaraq başa düşülür. Uşaq ədəbiyyatı həyatı, insanları anladan bir sənətdir. Xalqların yeni nəsillərini hazırlamasında və inkişaf etdirməsində, onların təlim və təhsilində uşaq ədəbiyyatının rolu böyükdür. Uşaq ədəbiyyatı son dövrlərdə qərb nümunələrinin təsiri altında qalaraq daha da önəm qazanmağa başladı. Uşaq ədəbiyyatı hekayə, şeir, sadə məlumat verici kitablar, ssenarilər, uşaqlar üçün xüsusi hazırlanan öyrədici və tərbiyələndirici teatrlar, uşaqlarla gənclərin bilik səviyyələrinə uyğun hər cür zövqverici, əyləndirici, eyni zamanda dünyagörüşü ilə bağlı olan bütün əsərləri öz əhatəsi altına almaqdadır.

Uşaq ədəbiyyatında nədən yazmağın lazım olması məsələsi bu ədəbiyyatın əsas cəhəti olaraq qəbul edilmir. Çünki uşaq ədəbiyyatında həyatın bütün sahələri əks olunmalıdır. Həyatda elə bir problem yoxdur ki, uşaq ədəbiyyatında ona toxunmaq mümkün olmasın. Yerin altını da, üstünü də bilən müasir uşaq həyatın elə bir problemi yoxdur ki, onunla maraqlanmasın. Uşaqların maraqlarını səngitmək, onu lazımi məcraya yönəltmək üçün uşaq ədəbiyyatının xidməti əvəzsizdir. Hamıya məlumdur ki, insan dünya, kainat, təbiət, cəmiyyət və s. haqqında gərəkli informasiyaların əksəriyyətini körpə vaxtlarından hafizəsinə həkk edir. Elə buna görə də uşağın gələcək dünyagörüşünün formalaşmasında, onun layiqli vətəndaş kimi böyüməsində uşaq ədəbiyyatını əvəz edə biləcək ikinci bir vasitə yoxdur.[10] Uşaq əsərləri insan sevgisini təbliğ edir, fərdi və zehni baxımdan təsir edir, incə insani bir ruh yaradır, balaca uşaqlara cəmiyyətdə və dünyada baş verən hadisələr haqqında daha geniş məlumat verir.[11]

Bəli, uşaq ədəbiyyatı nəinki özündən hündür gülə, günəşə, aya, gələcəyə boylanan bəşər övladının ədəbiyyatıdır. Azərbaycan sovet ensiklopediyasında qeyd olunmuşdur ki: "Bədii ədəbiyyatın üzvi tərkib hissəsi olan uşaq ədəbiyyatında xalqların və uşaqların həyatına dair, onların yaş xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə uyğun janr, forma və üslubda müxtəlif problemlər qaldırılır, gənc nəsildə yüksək əxlaqi keyfiyyətlər, vətənpərvərlik, sədaqət, dostluq, doğruluq, əməksevərlik, beynəlmiləlçilik, insanpərvərlik və humanizm tərbiyə edilir. Uşaq ədəbiyyatı əsərləri xeyirxah, mərd və cəsur qəhrəmanları, maraqlı süjet və kompozisiyası, anlaşıqlı, sadə və aydın bədii ifadə vasitələri, səlis dili ilə seçilir. Uşaq ədəbiyyatı folklor qaynaqlarından bəhrələnir."[12]

Keçmiş dövrlərdə yazılmış və yayımlanmış yazılı ədəbiyyatdakı hekayələr, əzizləmə və oxşamalar bənzər xüsusiyyətlər daşımaqdadır. Buradan görünür ki, keçmişdən bəri uşaq tərbiyə edilməsi və cəmiyyətin dəyərlərinə uyğun hala gətirilməsi vacib olan şəxsiyyət kimi görülmüş, şifahi və yazılı ədəbiyyatın, xüsusilə də uşaq ədəbiyyatının əsas məsələsi bu istiqamətə yönəlmişdir.

Uşaq ədəbiyyatını ümumi ədəbiyyatdan təcrid etmək olmaz. Əgər ümumi ədəbiyyat geniş xalq kütləsi üçün yaranmışsa, onun inkişafına və şəxsiyyət kimi formalaşmasına xidmət edirsə, uşaq ədəbiyyatının da öz oxucusu və bu oxucuya təsir qüvvəsi vardır. Doğrudur, hər iki ədəbiyyat insan tərbiyəsi ilə məşğul olur, lakin uşaq ədəbiyyatı bəşər övladının ilkin tərbiyəsinə xidmət edir. Bütövlükdə, ümumi ədəbiyyata xas olan xüsusiyyətlər uşaq ədəbiyyatının spesifikasını təşkil edir. Uşaq ədəbiyyatı da dünyanın, gerçəkliyin obrazlı şüurda qavrayışıdır, obrazlı idrakın məhsuludur. Yəni ümumi ədəbiyyata verilən ideya-yaradıcılıq prinsipləri, uşaq ədəbiyyatının da inkişaf istiqamətini müəyyən edir.[13]

Bu baxımdan uşaq ədəbiyyatına və təlim prosesinə baxdığımız zaman uşaq ədəbiyyatının öyrədici və tərbiyələndirici olduğunu, və ya bu istiqamətinin ön plana çıxdığını görürük. Uşaqların oxuyacağı və ya

dinləyəcəyi əsərlərin onları həyata hazırladığı kimi davranışlarında da dəyişikliklər edəcəyini gözləmək olar.

Uşaq ədəbiyyatının özünəməxsus bir sıra xüsusiyyətləri (növ, janr və üslub əlvanlığı, obrazlılıq, bədiilik, əyləndiricilik, poetik təsvir, lirizm, satirik boyalar, bəzi fikirlərin alleqorik surətlər vasitəsilə verilməsi, romantika, güclü emosionallıq və s.) var. Ancaq həmin xüsusiyyətlərin hamısı nəticədə aparıcı ideyanın daha asan və dərindən başa düşülməsinə, tərbiyəvi məqsəd və vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsinə xidmət etməlidir. İdeya, məqsəd və vəzifə baxımındansa uşaq ədəbiyyatı ilə pedaqogika arasında elə bir ciddi fərq olmadığını qeyd etmək yerinə düşərdi.[14]

Bu çərçivədə uşaq ədəbiyyatı nümunələrinin uşağın psixi və zehni inkişafına nə qədər böyük kömək göstərdiyi inkar edilə bilməz. İnsan həyatının ən mühüm mərhələsini maraqlandıran uşaqlarla bağlı olaraq yazılmış və ya yazılacaq ədəbi mətnlərin, təlim öyrətmə qurumlarında istifadə edilməsi və bir dərs müddətində ələ alınması mümkün deyil. Uşaq ədəbiyyatı əsərlərinin başlıca xüsusiyyətlərindən biri də onun öyrədici olması, uşaqların əsərlərdə özlərinə aid bir şeylər tapmaları ilə əlaqədardır. Uşaq yazıçısı təsvir etdiyi uşaqların yaşları, cinsiyyətləri, münasibətləri haqqında zəngin təfəkkürə malik olmalı və əsərində bunu dolğun şəkildə ifadə etməyi bacarmalıdır.

Bəzən uşaq ədəbiyyatı ədəbi yaradıcılığın əsas sahəsi kimi başa düşülür. Belə yanlış təsəvvür yaranır ki, adi həyat hadisələrindən sadə və aydın bir dildə danışmaqla uşaq əsəri yaratmaq mümkündür. V. Q. Belinski uşaq ədəbiyyatını bu cür təsəvvür edənlərə qarşı çıxaraq yazırdı: "Uşaq yazıçısının yaranması üçün çox, olduqca çox şərtlər vardır: nəcib, sevən, diqqətli, sakit, körpəcə-sadədil bir qəlb, yüksək məlumatlı bir idrak, predmetlərə aydın bir baxış, yalnız canlı bir təsəvvür deyil, həm də canlı, şairanə bir xəyal, hər şeyi canlı, zəngin surətlər halında təsəvvür etməyə qabil bir xəyal lazımdır. Aydındır ki, uşaqlara qarşı məhəbbət, uşaq yaşının tələb, xüsusiyyət və təfərrüatını dərindən bilmək də ən mühüm şərtlərdəndir".[15] Hər mərhələyə daxil olan uşaqlara onların yaş qruplarına uyğun əsərlər təqdim etmək lazımdır. Bir uşaq ədəbiyyatı yazıçısı öz-özünə nəyi yazmalıyam sualından başqa, necə yazmalıyam sualını daha çox verməlidir ki, uşaqların fərqli bir dünyasının olduğunu unutmasın. Belə olduqda onun yazdığı əsər uşağın marağına səbəb olur və uşağı özünə cəlb edir. Yazıçının uşağın inkişaf mərhələlərini çox yaxşı bilməsi lazımdır. O, əsərini elə dildə anlatmalıdır ki, uşağın ruhunu oxşasın, ona zövq verə bilsin. Eyni zamanda uşağın xəyal dünyasını kəşf edəcək bir zənginliyə və onun bu zənginlik içərisində öz xəyalları ilə üst-üstə düşən ideyaların tapılmasına imkan yaratmalıdır. Yazıçı bilməlidir ki, uşağın zehni, şüuru ona dərin təsir etmiş hər hansı bir həyat hadisəsini və ya prosesini çox gec unudur və unutmur. Buna görə də yazıçı həyatdan götürdüyü həqiqətləri, problemləri bir-bir seçməli və süzgəcdən keçirməlidir.

Uşaq ədəbiyyatı yazıçısı əsərində valideynlərinin yanında bütün problemlərdən uzaq olan, nəyin pis, yaxşı, nəyin düz və ya əyri olduğunu tam mənası ilə qavramayan bir varlığa səslənir. Məhz bu baxımdan yazıçı əsəri yazarkən uşağa həyatın müəyyən sirlərini və həqiqətlərini öyrətməyi qarşısına məqsəd qoyur. Bu həm də onun tərbiyə edici tərəfi ilə bağlıdır. Uşaq ədəbiyyatı gələcəyin yeniyetmələrinin şəxsiyyət kimi formalaşmasında gərəkli olan mədəni düşüncənin, dəyərlərin öyrənilməsi, cəmiyyət üçün gözəl olan davranış qaydalarının mənimsənilməsinə kömək etdiyinə görə öncə bu xüsusiyyətlərin nəzərə alınması və uşaq ədəbiyyatı əsərlərində olması diqqət mərkəzində saxlanılmalıdır. Bütün bunları ər-

səyə gətirmək və uşaqlara göstərmək üçün onların dünyasını yaxşı araşdırmaq, öyrənmək, bir çox istiqamətdən təhlil etmək və ya onların səviyyələrinə uyğun əsərlər ortaya çıxarmaq lazımdır.

Görkəmli şair S.Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı məqaləsində yazır: "Düşünmək, duymaq, sevmək, küsüb-incimək, ağlamaq, gülmək, qəzəblənmək kimi bütün insana aid olan xüsusiyyətlər uşaqlıq aləmində mövcuddur. Biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaqlar üçün yazdığımız zaman, insan üçün yazdığımızı unutmamalıyıq. Uşaq üçün yazılmış hər bir əsərin əsasında məna gözəlliyi yaşamalıdır". O yazırdı: "Uşaq insandır! Onun sadə, hərəkətli, hər zaman xoşbəxt və azad təbiətində böyük insanların bütün əlamətləri vardır".[16] Səməd Vurğun digər yazıçılara hər zaman uşaqlar üçün yazmağın nə qədər məsuliyyətli və çətin bir iş olduğunu, uşaq həyatını tərənnüm etmənin önəmli olduğunu söyləyərdi.

"Nə cür uşaq ədəbiyyatı?" - sualı hər hansı cəmiyyətə "Nə cür yetişkin?" sualını da bərabərində gətirməkdədir. İstər körpəlik, uşaqlıq, istərsə də yeniyetməlik dövrünü bir-birindən ayrı təsəvvür etmək olmaz. Keçmiş və hazırlıq, dövrlərinin fizikası, ruhi və ətraf əlaqələri cəhətdən sağlam yaşanması, yaxşı və gözəl toxumların solmaması halında şəxsiyyətli, özü ilə və ətrafı ilə barışıq, məhsuldar və yaradıcı fərdlər yetişə bilər.

Uşaq ədəbiyyatının başlıca vəzifəsi böyüməkdə olan nəslin etik və estetik tərbiyəsinə istiqamət vermək, milli və bəşəri ideyalara hörmət və sədaqət, vətənpərvərlik, humanizm, əməksevərlik, dostluq, yoldaşlıq, düzlük və doğruluq, özünə qarşı tələbkarlıq kimi mənəvi-estetik keyfiyyətlər aşılamaqdır.[17]

Uşaq ədəbiyyatı nümunələri uşağın öz mənliyini formalaşdırmasında mühüm bir funksiyanı yerinə yetirir.

Uşaq ədəbiyyatı sahəsində əhəmiyyətli tədqiqatları ilə tanınan Rafiq Yusifoğlu ali və orta ixtisas məktəbləri üçün yazdığı "Uşaq ədəbiyyatı" adlı dərslikdə, uşaq ədəbiyyatının qarşısında duran başlıca vəzifələri maddələr şəklində aşağıdakı kimi sıralamışdır:[18]

1. Uşaqların qəlbində nəcib insani hisslər oyatmaq,
2. Körpələri tarixi keçmişimizə, qəhrəman babalarımıza, nənələrimizə məhəbbət ruhunda tərbiyə etmək,
3. Xalqımızın kəşməkəşli tarixini, onun uğurlarını, büdrəmələrini, başına gələn müsibətləri sadə, sənətin ecazkar dili ilə oxuculara çatdırmaq, ulu yurd yerlərimizi, qədim şəhərlərimizi, kəndlərimizi tanıtmaq və sevdirmək,
4. Doğulduğu torpağa məhəbbət oyatmaq, zəngin təbiətimizi, bərəkətli torpaqlarımızı, başı qarlı dağlarımızı, qoynunda sellər-sular çağlayan dərələrimizi, durnagözlü bulaqlarımızı, bol sulu çaylarımızı, göllərimizi sevdirmək, adi böcəkdən, otdan, çiçəkdən tutmuş bütün təbiət cisimlərini uşaq təfəkkürünə uyğun şəkildə onlara təqdim edib tanıtmaq,
5. Əməyə məhəbbət hissi oyatmaq,
6. Balalarımızı vətənin düşmənlərinə qarşı amansız olmaq ruhunda tərbiyə etmək, eyni zamanda humanizm, vətənpərvərlik ideyalarının ən ali hiss olduğunu heç zaman unutmağa imkan verməmək,
7. Düzlüyü, doğruluğu, sadəlik və təvazökarlığı, mənəvi saflığı təqdir və təbliğ etmək,
8. Yoldaşlıq, dostluqda sədaqət, satqınlığa nifrət hissləri aşılamaq,
9. Dözümlülük, ən ağır dəqiqələrdə özünü itirməmək, mübarizlik ruhunu təbliğ etmək,

10. Uşağı müqəddəs dinimizə, adət-ənənələrimizə məhəbbət ruhunda tərbiyələndirməyə çalışmaq,
11. Doğma dilimizi, ədəbiyyatımızı, incəsənətimizi, musiqimizi sevdirmək,
12. Uşaqda ilkin poetik, bədii təfəkkürü formalaşdırmağa çalışmaq,
13. Gözəlliyə məhəbbət ruhu aşılamaq,
14. Uşaqda yumor hissi oyatmaq. Əlbəttə bu sadalananlar uşaq ədəbiyyatının qarşısında duran bütün problemləri əhatə etmir.

Uşaq ədəbiyyatı ümumi söz sənətinin və yaradıcılığının ayrılmaz tərkib hissəsi olsa da, onun bir sıra özünəməxsus xüsusiyyətləri və fərqləri vardır. Bu xüsusiyyətlər onu böyüklər üçün yazılmış ədəbi əsərlərdən ciddi şəkildə fərqləndirir.

Bu baxımdan uşaq ədəbiyyatı nümunələrində problem, dil və öyrətmək yönündən ayrı-ayrı və ya ortaq olaraq məqsədlərin tapılması çox önəmlidir. Yuxarıda sayılan maddələrə əlavə olaraq bu kriteriyalar da əlavə edilə bilər:[19]

1. Hədəf kütləsi 2-16 yaşları arasında olmalıdır.
2. Uşaqlara aid nümunələrin ədəbi, estetik və sənət istiqamətinin güclü olması gərəkdir. Bu nümunələr uşağın ədəbi, estetik və sənət zövqünü inkişaf etdirməlidir.
3. Uşağın duyğu, düşüncə, fikir və xəyal dünyasına təsir etməlidir.
4. Uşağa yaşama sevinci və həyəcanı qazandırmalıdır.
5. Hörmət, sevgi, başqalarına kömək və yardım etmək kimi duyğuları formalaşdırmaq.
6. Namus, doğruluq, sözündə durmaq kimi dəyərlər formalaşdırmaq.
7. Cəsarət və özünə güvən duyğusunu formalaşdırmaq.
8. Uşağa özünü göstərə bilmək bacarığını öyrətmək.
9. Gözəl, yaxşı, doğru duyğu və anlayışı formalaşdırmaq.
10. Milli və mənəvi dəyərləri tanıma bacarığını aşılamaq.
11. Başqaları ilə yaxşı münasibətlər qura bilmək vərdişini inkişaf etdirmək.
12. Seçmə, araşdırma və fikir yürütmək qabiliyyətlərini formalaşdırmaq.
13. Həyatı doğru olaraq başa düşmək və mənalı yaşamaq duyğusunu başa salmaq.
14. Ana dilini sevmə, dilin inkişafına yardımçı olmaq və yaxşı işlətmək bacarığını formalaşdırmaq.
15. Yaradıcılıq və istehsal bacarığını formalaşdırmaq.
16. Uşağa kitab sevgisini aşılamaq, kitab oxumağın həyatın mühüm gərəyi olduğunu başa salmaq.
17. Yaradıcı fəaliyyətlərdə olması üçün infrastruktur hazırlamaq.
18. Uşağa həyatı tanıtmaq.
19. Uşaqların psixoloji ehtiyaclarını qarşılamaq, güvən, sevgi, sevilmə, sevmə, öyrənmə, bir qrupa aid olma, oyun, dəyişiklik və estetiklik kimi keyfiyyətləri aşılamaq.
20. Uşaqların dəyişik yaşlarda maraq göstərdikləri məsələləri diqqət mərkəzində saxlamaq.
21. Uşağa ədəbi və estetik dəyərləri öyrətmək.
22. Uşağı araşdırıcılığa və incələməyə istiqamətləndirməli.
23. Məlumatlandırılmalı məsələlər diqqət çəkən şəkildə verilməli, əyləndirici və düşündürücü olmalıdır.
24. İnsanı və ətrafdakıları tanıtmalı, yurd sevgisi, insan sevgisi və xeyirxahlıq duyğusu güclü olmalıdır.

25. Uşaq ədəbiyyatı uşağın özünü tanımasına və şəxsiyyətinin inkişaf etdirməsində rol oynamalıdır.
26. Gənclərin və uşaqların dərs kitablarında olmayan və əldə edə bilmədikləri məlumatların əks olunmasına yer verilməli.
27. Uşaqlara dünyagörüşlərini inkişaf etdirən və zənginləşdirən, sosial həyatdakı ehtiyaclarını qarşılamağa istiqamətlənmiş məlumatlar verilməli.
28. Uşaq ədəbiyyatı nümunələri təsiredici olmalıdır. Bu da uşaqların daxili aləmləri, təcrübələri ilə bağlı olmalı, uşaqlar onu mənalandıra bilməli və beləcə öz təcrübələrini yeniləşdirməlidir.
29. Ədalət duyğusu olmalıdır. Günahı olan cəzasını almalı, bir pisliyin cəzası ədalətlə verilməlidir.

Bu ədəbiyyat uşaqların qəlbində nəcib hisslər oyadan mənzum və mənsur əsərlərlə işıqlandırılmalı, onların gələcək haqqında gözəl və ümidli arzularına qanad verməlidir. Uşaq ədəbiyyatı uşaqları zəngin, mənəvi və estetik zövqə malik zəmanəsinin ən humanist biliklərinə yiyələnən yetkin bir insan kimi tərbiyə etməlidir. Bu insan öz xalqının mübarizələrlə zəngin tarixi keçmişinə dərindən bələd olmalı, bu günün tələb etdiyi ideyalarla ayaqlaşmağı bacarmalı, vətənpərvərlik və vətəndaşlıq ideyalarını hər şeydən uca tutmalıdır. Bu ədəbiyyat bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli, onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir.[20]

Buraya qədər araşdırılan və təhlil olunan uşaq ədəbiyyatının yalnız əsərlərin yazıldığı və uşaqlar tərəfindən oxunduğu nəzərdə tutulmur, həm də mühüm pedaqoji problem kimi ortaya qoyulur. Onun bədii estetik dəyəri pedaqoji mahiyyətindədir. Bu təsir nəticəsində tərbiyə ortaya çıxır. Bu mahiyyəti bilib istifadə etmək isə yeni nəslin böyüməsində və cəmiyyətdəki adət-ənənələri, qayda-qanunları, tərbiyə üsullarını onlara öyrətməkdə böyük rol oynayır.

### ƏDƏBİYYAT


1. C. Kavcar Edebiyat ve eğitim, Ankara, A.Ü. Eğitim Bilimleri Fakültesi Yayınları, 1994, s. 853.
2. Xəlil Z. Əsgərli F. Uşaq ədəbiyyatı, dərslik, Bakı, ADPU-nun nəşriyyatı, 2007, s. 9
3. İbrahim E. Başaran, Eğitini Psikolojisi. Ay Yıldız Mat. A.Ş., Ankara. 1966, s. 66
4. Qara Namazov "Azərbaycan uşaq ədəbiyyatı" Bakı 1984 s.13
5. A. Özkırımlı Türk Edebiyatı Ansiklopedisi, İstanbul, Cem Yayınları, 1990, s. 327
6. Qara Namazov, Azərbaycan Uşaq ədəbiyyatı, Bakı, Bakı Üniv. nəşriyyatı, 2007, s. 4
7. Galda, L., Cullinan, B., & Strickland, D .S. *Language Literacy and the child*. Forth Worth: Harcourt Brace College Publishers, 1993, s.20
8. Zarillo, J. Teachers' interpretations of literature-based reading. *The Reading Teacher*. 43 (1), 22-28, 1989, s.22.
9. Camal Əhmədov "Uşaq və zaman". s.60 Bakı, 1983
10. Rafiq Yusifoğlu, Uşaq Ədəbiyyatı, ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik, Bakı, Şirvannəşr, 2006, s. 5
11. Camal Əhmədov "Uşaq və zaman", s. l5, Bakı, 1983
12. Rafiq Yusifoğlu, Uşaq Ədəbiyyatı, ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik, Bakı, Şirvannəşr, 2006, s. 4
13. Xəlil Z. Əsgərli F. Uşaq ədəbiyyatı, dərslik, Bakı, ADPU-nun nəşriyyatı, 2007, s. 11
14. Ağahüseyin Həsənov, Azərbaycan Uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə, s. 47
15. V.Q. Belinski, Seçilmiş Məqalələr, B., 1948, s. 12
16. Səməd Vurğun Əsərləri. S. 311 Baku 1972 V.Cilt
17. Qara Namazov Azerbaycan Uşaq Ədəbiyyatı. Ali məktəblər üçün dərslik . Bakı. Bakı Universiteti nəşriyyatı, 2007, s.3
18. Rafiq Yusifoğlu, Uşaq Ədəbiyyatı, ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik, Bakı, Şirvannəşr, 2006, s. 5
19. Oktay M. II. Meşrutiyet`ten Cumhuriyet`e çocuk şiirlerinin pedagojik değeri Yüksek Lisans tezi 2001 YÖK Tez Merkezinde, s.35
20. Namazov Qara Azərbaycan Uşaq Ədəbiyyatı. Ali məktəblər üçün dərslik . Bakı. Bakı Universiteti nəşriyyatı, 2007, s.4